**Mahir N.Qarayev**

# SONUNCU KORİFEY

*(psixoloji-assosiativ roman)*

qanun nəşriyyatı

**Mahir N. Qarayev**

**SONUNCU KORİFEY**
*(psixoloji-assosiativ roman)*

Bakı, "Qanun" nəşriyyatı, 2024, 392 səh.
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 06.12.2023

**Redaktor:** Fəxri Uğurlu
**Korrektor:** Selcan Abasova
**Dizayn:** Aynur Təbrizli
**Texniki redaktor:** Lalə Hüseyn
**Qapaq dizaynı:** Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

İSBN 978-9952-38-315-7

© Qanun Nəşriyyatı, 2024
© Mahir N. Qarayev, 2022; 2024

***Bu dünyanın on bir ay on beş gün qonağı olmuş mandarin kimi zərif uşağın – qıvrımsaç, buruqtel Üzeyirin xatirəsinə***

# I HİSSƏ

# GECƏ

## Birinci fəsil

Sabah mitinqə gedəcəkdi.

Mitinqə getmək qərarını bir həftə öncə, ötən şənbə günü vermişdi və o gündən əhvalı qarışmışdı, dincliyi pozulmuşdu, yuxusu ərşə çəkilmişdi. Bütün həftəni səngimək bilməyən narahat düşüncələr içərisində keçirtmişdi. Divanda saatlarla hərəkətsiz uzanıb siqareti siqaretə calaya-calaya başını birtəhər qatmağa çalışmış, kresloda mürgü döyə-döyə ayağından pudluq daş asılan vaxtın keçib getməsini zillətlə, nigarançılıqla gözləmişdi və indi də, fikirdən azacıq ayrılan kimi, divardakı qədimi saatın tilsimə düşmüş əqrəblərinə göz yetirib səhərin açılmasını olmazın səbirsizliklə gözləyirdi...

İzdihamın ön cərgəsində addımlayacaqdı.

Hə-ə, heç kimə fikir vermədən, heç kəslə kəlmə kəsmədən ön sırada, hamıdan qabaqda gedəcək, polislərə mümkün qədər yaxın yerdə duracaq, başını dik saxlayıb axıra kimi şax dayanacaqdı. Axıra kimi.

Polis dəyənəyindən nəinki qorxub-çəkinəcəkdi, əksinə, qorxunu-filanı heç eyninə almayacaq, bircə tükü də tərpənməyəcəkdi.

Qovacaqdılar – qaçmayacaqdı; kötəkləyəcəkdilər – vecinə gəlməyəcəkdi. Cınqırını çıxarmadan durduğu yerdə eləcə mıxlanıb qalacaq, zərbələrdən qorunmağa heç cəhd də göstərməyəcəkdi. Qoy vurub baş-gözünü yarsınlar, ağız-burnunu əzişdirib yaman günə salsınlar, yerə yıxıb

təpikləsinlər, qarğa-quzğun kimi üstünə tökülüşüb axırına çıxsınlar, yaralı cəmdəyini asfaltın üstündə elədən-eləyə, belədən-beləyə sürüsünlər, sonra da hansısa sınıq-salxaq avtobusun dal qapısından içəri tullayıb polis bölməsinə aparsınlar, yaxud çirkli, darısqal, qaranlıq kameraya aparıb atsınlar – fərq eləməz.

Düzünə qalsa, mitinqdə tutulanın sonrakı aqibəti barədə səlis-dürüst təsəvvürü yoxdu, sadəcə, ordan-burdan eşitdiklərinə, qəzetlərdən oxuduqlarına əsasən belə fərz edirdi ki, aparılacağı yer polis bölməsi də ola bilər, kamera da, xəstəxana da. Necə deyərlər, o baxırdı prosesin gedişatına, yəni aldığın xəsarətlərin ağır-yüngüllüyünə və bir də müxalif düşüncənin dövlət orqanları üçün nə dərəcədə təhlükə doğurub-doğurmadığına.

Müxalif düşüncəyə gəldikdə, sözsüz ki, belələrindən idi; di gəl, müxalifliyi kənək qoz kimiydi və tərsin yekəsi olduğuna artıq heç kəsin – *nə o tərəfdəkilərin, nə bu tərəfdəkilərin!* – şübhəsi yoxdu, daha doğrusu, umanlar axırda ummaqdan təngə gəlib küsmüş, küsənləri eləcə umsuq qoymuşdu. Fəsiltək dəyişən iqtidarların heç birinə ürək qızdırmazdı, lap düzü, hamısından zəhləsi gedirdi; müxalifətçi-filan da deyildi və indiyəcən tərəflərdən heç birinin mitinqində iştirak etməmişdi.

Nə mitinqə getmişdi, nə nümayişə çıxmışdı – Akademiyanın dəyirmi konfrans zalındakı iqtidarlı-müxalifətli məclisdə sərt çıxışını bitirib kürsüdən hiddətlə endikdən və qapını arxasınca çırpıb ağzınacan dolu salonu biryolluq tərk etdikdən sonra daha heç bir tədbirə qatılmamışdı. O vaxtdan bu vaxta müxtəlif ünvanlardan aldığı rəsmi, ya qeyri-rəsmi dəvətnamələr də köhnə yazı masasının alt siyirməsində eləcə qalaqlanıb qalmaqda idi – bircəciyinə də getməmişdi.

Məsəl var ki, qazan deyir dibim qızıldandı, çömçə də deyir gəzib gəlmişəm – indiki iqtidarı müxalifətdə görüb tanıdığı kimi, indiki müxalifəti də iqtidarda görüb tanımışdı. Kəsəsi, hakimiyyətçün ağzının suyu axanların iqtidarlığına da bələddi, hakimiyyətdən dördəlli yapışanların müxalifliyinə də. Özü də yaxşı bələddi, necə deyərlər, dabbaqda gönlərinəcən. Canlarından «can», dillərindən «Azərbaycan» əskilməyən vətən-millət təəssübkeşləri hündür kürsülərdən «can-can» söyləyirdi, üçrəng bayrağın altında «Azərbaycan» oxuyurdu. Amma nə yanğı can yanğısıydı, nə dava Azərbaycan davası – əlçatmaz Cıdır düzündən boylanan cənnət Qarabağ da bəhanəydi, xan Arazın güney üzündən boylanan dumanlı Təbriz də.

İqtidarlı-müxalifətli dava, əslində, göydə uçan quşun davasıydı!

Vaxt-bivaxt başına həmfikirlər toplayıb haqq-ədalət carçısıtək ortaya düşən, yan-yörəsinə tərəfdarlar yığıb özlərini Roma papasından daha betər katolik sayan qruplar, təriqətlər, partiyalar, sağçı-solçular – *əsla fərq etməz: istər gizli masonlar olsun, istər aşkar sionistlər; neofaşist olsun, ya əski kommunist!* – guya hamısı haqq yolunun, nicat yolunun axtarışına çıxmışdılar. O isə artıq çoxdan bu qənaətə gəlmişdi ki, dünyanı xilas etməyin tək bircə yolu var: dünya hamınınkı olmalıdır, hər kəs də vətən qismində bütöv dünyanı sevməlidir.

Allahın bütöv dünyasını irili-xırdalı məmləkətlərə, gözəgörünməz varlığını isalı-musalı məzhəblərə bölməklə, əslində, qanlı savaşlara zəmin yaradılıb; özü də qəsdən yaradılıb – zalımın məzlum üzərindəki ağalığını qorumaqçün!

Yalançı savaşların, bilərəkdən körüklənən münaqişə ocaqlarının hamısı mahiyyətcə min illərin tanış oyunudur və bineyi-qədimdən mövcud olan bu mübarizənin tək bircə adı var: *qarın davası.*

Göydə uçan quşu daşla vurub salıblar yerə – ayaqdan iti məzlum hamıdan tez qaçaraq ovu qamarlayıb, qoldan zorlu zalım da dartıb əlindən alıb.

Qərəz, bütün bu siyasi jestlər – *bu narıncı inqilablar, bu məxməri çəkişmələr!* – məhz göydəki quşa hesablanıb və prinsipcə heç biri minillik gödən davasının sivil formasından özgə bir şey deyil. Məscidi uçurub yerində kilsə, kilsəni uçurub yerində məscid ucaltmaq, insanın ağından qarasına, qarasından ağına düşmən düzəltmək, üstündə qalın cız çəkib bütöv torpağı ölkələrə, vilayətlərə bölmək, sonra da vətən-millət-din təəssübkeşliyini kül kimi gözə üfürmək – hamısı eyni məqsədi güdür.

Və hara yozub, necə çözsən də – *başını hansı qumluğa soxub, quyruğunu hansı kolluğa dürtsən də!* – məsələ məhz bu cürdü: dava göydə uçan quşun davasıdı, vəssalam.

## İkinci fəsil

*«Faşistlər kəndi yandırdılar. Hər şey yandı. Nifrət qaldı...»*

...Dahiliyin sirrini guya hamıdan yaxşı bildiyini, Nobel mükafatına aparan yolun dolanbaclarını hətta Folknerin özündən də yaxşı tanıdığını iddia edən Korifeyin – *o faşist köpəyoğlunun!* – çox-çox uzaqlardan gələn ötkəm və xırıltılı səsi qulaqlarında səslənib ovqatını əməlli-başlı qarışdırdı; dərhal yerindən durub siqaret alışdırdı...

Yaxın tarixin bütün hoqqaları gözlərinin önündəydi: qaşqalı Qorbaçovun Nobel mükafatına aparan uzun yolu SSRİ-ni dağıtmaqdan, quruluşu çökdürməyin qısa çığırı Bakıda qırğın törətməkdən keçmişdi. Hər necə olsa, sonda Kəlbəcərdən Kamçatkayadək dünyanın altıda bir hissəsini tutan kommunist məhbəsi uçulmuş, bitərəf sakinlər sosial məhbusluqdan kapital azadlığa çıxmışdılar.

Bu lap Letsin dediyinə oxşamışdı: başınla döyəcləyə-döyəcləyə, tutaq ki, axırda kameranın beton divarını uçurtdun – çox əcəb, bəs qonşu kamerada neyləyəcəksən?!

Hə-ə, yağışdan çıxan binəvalar əcəb yağmura düşdülər, ələlxüsus da dahi Rustavelisi ilə dahi Nizamisi daim qol-qola gəzmiş, qədim Rustavisi ilə qədim Gəncəsi həmişə can deyib can eşitmiş gürcülər və azərbaycanlılar.

Qərəz, Tiflisdə aprel dramı baş verdi, Bakıda yanvar faciəsi.

Şər İmperiyasının son yetmiş illik tarixində Beriya və Nərimanovdan sonra qızıl ulduzlu Kreml olimpinin ən yüksək zirvəsini fəth etmiş gürcülərin bir nömrəli kommunisti Eduard Şevardnadze ilə azərbaycanlıların bir nömrəli kommunisti Heydər Əliyev – *bu bir cüt Qafqaz Qartalı!* – əndazəni aşan haqsızlığa dözməyib, baş qaxıncına çevrilən minnətli olimpi uf demədən tərk etdilər.

İncəvara, bu siyasi jestlər əvəzsiz-cavabsız qalmadı: qədirbilən gürcü xalqı batono Eduardı, etibarlı azərbaycan xalqı da Heydər bəyi göydəcə qamarlayaraq yerə enməyə qoymadı və bayraq kimi başlarının üzərinə qaldıraraq aparıb milli olimpin ən yüksək zirvəsinə sancdı.

Dovşana «qaç!», tazıya «tut!» çığıra-çığıra cənnətməkan Qarabağın yaşıl yamaclarında «qaçdı-tutdu» oynayan qaşqalı Qorbaçov bəlkə Vəzirovu həriflәyə bilərdi, bədəbəddə Mütəllibovu şirnikdirə bilərdi; hər halda, taxt-tacı devriləndən sonra tifillər ikisi də məhz Moskvaya pənah gətirmişdi. Heydər Əliyev isə bu hәriflərin təzəlikcə üz tutduğu qızıl ulduzlu Kreml qazanının dibini çoxdan gəzib qayıtmışdı və Nobel mükafatının birini deyil, lap beşini də almış olsa, Qorbaçov dünyasında ona kəf gələ bilməzdi;

əksinə, Heydər müəllim bu geydirmə Nobel ödülçüsünü, bu saxta Sülh müdafiəçisini qırmızı qalstuklu məktəb uşağıtək qabağında oturdub, ona yenidənqurma siyasətinin əlifba dərsini keçərdi.

*– Yeddi milyon qoyunu var, qabağına qatıb otarır!*

Daldan atılan daş topuğa dəyər; bu kəsək Heydər bəyin arxasınca hay-hayı gedib vay-vayı qalan qırmızı qalstuklu düşərgənin paytaxtından, – özü də kimin-kimin?! – cındır çadırını, gülməşəkər Qəddafi kimi, Kremlin düz böyründə gətirib qurmuş poliqlot Jirinovskinin əliylə atılmışdı.

Dəmliyi tutanda Amerika xatirələrini yalnız yağlı rus söyüşləriylə nəql edən Yeltsindən fərqli olaraq, başına guya liberallar, yan-yörəsinə guya demokratlar toplayıb haqq-ədalət carçısıtək ortalığa düşmüş bu baməzə poliqlot qatqısız rus arağı gillədərək ingilisi ingiliscə, almanı almanca, türkü türkcə söyməyin ustasıydı; Yeltsin kimi hərdən çaxırı rakı ilə qatıb-qarışdıranda isə ələkçiyə qıl verən qılçı ermənilərlə ilana zəhər verən kərtənkələ yəhudilərin yeddi arxadönənini bir-birinə qatıb, bildiyi yeddi dilin yeddisində də bir-birinə qarışdırırdı.

Hər necə olsa, dəvədən yekə fil vardı – erməni konyakını türk rakısından da, gürcü çaxırından da, bədəbəddə, lap rus vodkasından da üstün tutan Qorbaçovun qarışıq menyüsündə, heç şübhəsiz, çoşqa basdırması quzu qovurmasından əfzəldi. Bu səbəbdən, bölgədə qlobal donuzçuluq təsərrüfatını genişləndirmək niyyətilə BMT nizamnaməsinə xüsusi bənd salınmış və milli quzuların mazutlu quyulardan aralıda yerləşən, ekoloji cəhətdən kifayət qədər təmiz sayılan otlağından bir parça kəsilərək beynəlmiləl xarakterli çoşqaların ixtiyarına verilmişdi.

Bölgəyə jandarm statusunda təhkim edilmiş Minsk Qrupunun qeyri-belarus həmsədrləri, bir-birindən mötəbər beynəlxalq təşkilatların, regional mərkəzlərin, sülhsevər missiyaların təmsilçiləri otlağa vaxtaşırı baş çəkir, quzuyla çoşqanın dinc və yanaşı otlaması üçün tər tökürdülər. Ad-da-budda mələrti-xortultu səsləri eşidilsə də, cənnətməkan vilayətin qabaqlar «qaçdı-tutdu» oynanılan yaşıl yamaclarında vəziyyət, yəni atəşkəs rejiminin durumu sabit və dəyişməzdi – necə deyərlər: *абсолютно и точно!*

Ən xırda vintciyi belə nəzarət altında fırlanan mexanizmdə nəyinsə dəyişməsi onsuz da mümkün deyildi və Jirinovskinin subyektiv gözüylə baxanda, ötən müddətdə dəyişən yalnız quzuların sayı, ATƏT-in obyektiv arşınıyla ölçəndə – otlağın həcmi olmuşdu.

Kəsəsi və qısası: yeddi milyon quzunun sayı doqquz milyona çatmış, 86,6 min kvadratkilometrlik otlağın həcmi 20 faiz daralmışdı.

## Üçüncü fəsil

...Adını heç cür yada sala bilmədiyi qızcığazın tanış çöhrəsini qəfildən xatırladı. Özü də bu dəfə qırmızı duman içində, qırmızı ağactək xatırladı: Şukşinin qırmızı kalinası kimi, Çingiz Aytmatovun qırmızı qovağı kimi doğma bir nisgillə xatırladı. Amma nədən, nə səbəbdən xatırladı? – burasını bilmədi...

Sövdagərliyi görən gözü yoxdu – hər matahın hərraca sürükləndiyi bu dəllal yarmarkasından, əski tüccarların şeytanbazara çevirdiyi bu arşınmalçılar məmləkətindən, mayası haramdan tutulmuş bu möhtəkirlər dünyasından çoxdan, çoxdan iyrənmişdi.

Adını yada sala bilmədiyi qızcığazın tanış çöhrəsini xatırlayanda fikirləşdi ki, qırmızı tabut karvanındakı ən balaca tabut məhz elə onun tabutuydu *(Vaqif Cəbrayılzadə demiş: göydə ən gözəl ulduz onun ulduzuydu!)* və hazırkı daşınmaz əmlak bazarının tarifinə uyğun olaraq, hər kvadratsantimetrinin maya dəyəri od bahasına çıxan torpaqda ən kiçik yeri də elə o qızcığazın cənazəsi tutub.

Yanvar şəhidlərinin izdihamlı dəfn mərasimini yaxşı xatırlayırdı: qırmızı tabut karvanında cənazəsi büsbütün gül-çiçəyə tutulmuş o qızcığazın da tabutu vardı və onda Qorbaçov hələ Nobel ödülünə layiq görülməmişdi.

Elədir, Sovet İttifaqı Kommunist Partiyasının Baş Katibi – *sonuncu başbiləni!* – Mixail Sergeyeviç hələ Sülh mükafatçısı deyildi, lakin onun ev dustağına çevirdiyi Heydər Əliyev bir yox, bəlkə yüz Nobel ödülünə dəyən jesti məhz o izdihamlı dəfnin ərəfəsində etmişdi: şəhid qanı rəngindəki qırmızı partbileti pencəyinin sol cibindən çıxarıb, qızıl ulduzlu Kremlin təpəsinə çırpmışdı.

Özü də harda-harda?! – düz Moskvanın göbəyində!

Özü də necə?! – tərəddüdsüz-filansız və zərrəcə qorxub-çəkinmədən!

Bəli, tam nümayişkaranə tərzdə və bütün dünyanın gözü qabağında!

Yusif Səmədoğlu demiş: tfu sənin hərçi-pətərinə, belə dünya!

Tfu sənin hərçi-pətərinə ki, Kreml qülləsinin ulduzlu təpəsindən Ağ Evin günəşli qübbəsinəcən bütün varlığın min illərdi yalan üzərində, hiylə üzərində, saxtakarlıq üzərində bərqərardır və min illərdi ağlaya-ağlaya durub baxan, ha basdırsalar da, gün işığıtək qəbrin üstdə qalan uşağın bir damla göz yaşına dəyməz!